ri, eləcə də Vətən müharibəsi qaziləri dövlət başçı- 44 günlük Vətən müharibəsində əldə etdiyimiz

● Vətən üçün doğulanlar

# İki müharibənin qəhrəmanı

**Vətən müharibəsi xalqımızın nəyə qadir olduğunu dünyaya yaxşı tanıtdı. Qazancımız şanlı qələbə, tanıdıqlarımız isə Vətən üçün canlarından keçməyi bacaran igidlər oldu. Belə oğullarımızla fəxr edirik. Çünki onlar canlarını vətənimizə, torpağımıza, tariximizə, mədəniyyətimizə tuşlanan düşmən gülləsinə sipər edənlərdir, şəhidlik zirvəsinə ucalanlar, bədənində qəlpə və onun yarasını gəzdirən qazilərimizdir.**

Belə vətənpərvər qazilərimizdən biri də 1972-ci ilin avqust ayında Zəngilan rayonunun cənub-qərbində yerləşən gözəl iqlim şəraitinə malik Bartaz kəndində anadan olan, 1990-cı ildə orta məktəbi bitirərək, həmin ilin dekabrında hərbi xidmətə çağrılan, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında qulluq edən Zülfü Həsənəliyevdir.

Ağdam, Şuşa, Laçın, Ağdərə, Xocalı, Füzuli, Naxçıvan, bir sözlə, Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüşlərdə qəhrəmanlıq göstərib. Zülfü Həsənəliyev Ağdam rayonunun Papravənd kəndində ağır yaralanıb. Müalicə olunduqdan sonra Daxili Qoşunların komandiri, Milli Qəhrəman Sahil Məmmədovun və Rövşən Allahverdiyevin komandirliyi ilə 1992-ci ilin mart ayında Zəngilan rayonunun Qazançı, Ağkənd, Seyidlər kəndlərinin işğaldan azad olunmasında iştirak edib.

Keçmiş döyüşçü-qazi o illəri xatırlayaraq deyir ki, 1992-ci il iyunun 29-da gərgin döyüşlər gedirdi. O zaman yoldaşlarımızdan Zakif Abbasov və Natiq İmanov yaralanıb: "Hərbi sürücü Yanvar Şahməmmədovun köməyi ilə yaralılar Zəngilan Rayon Mərkəzi Xəstəxanasına



gətirildi. Bu illərdə Yanvar Şahməmmədovun xidmətlərini qeyd etmək yerinə düşər.

Onu da deyim ki, heç bir texnika Qazançı kəndinə girə bilmədiyi vaxtlarda Yanvar Şahməmmədov ölümlə üzbəüz olurdu. Mərmi partlayışı nəticəsində komandir Sahil Məmmədov yaralandı. Onu döyüş meydanından çıxarmaq müşkül işə çevrildi.

Lakin onun döyüş dostları və Milli Ordunun cəsur sürücüsü Yanvarla ermənilərin güclü atəşi və nəzarətində olan sahədən çıxarıb Zəngilan Rayon Mərkəzi Xəstəxanasına, oradan isə Bakıya göndərdik..."

Sahil Məmmədovu xəstəxanada qoyub, döyüş mövqeyinə qayıdan Zülfü Həsənəliyev axşam saatlarında mərmi partlayışı nəticəsində başından və ayağından yaralanır. Yenə də ölümün gözünə dik baxan sürücü Y.Şahməmmədov köməyə çatır. O, Zülfünü Zəngilana, üç gündən sonra isə Bakıya, DİN-nin Mərkəzi Hospitalına gətirir.

Müalicəni başa vuran Zülfü Həsənəliyev döyüşlərdə göstərdiyi yüksək peşəkarlığa görə, DİN-in Zəngilan Rayon Polis Şöbəsinin əməkdaşı kimi işə qəbul edilir.

Qarabağın, o cümlədən Zəngilanın erməni qaniçənlərindən azad edilməsində rayonun polis əməkdaşları yaxından iştirak edib. Kilsə kəndində vaxtilə Zülfü Həsənəliyevin hərbi hazırlıq müəllimi olmuş Bərxudar Şıxalıyev öz həyatını təhlükəyə ataraq düşmənin uzunmüddətli atəş nöqtəsini susdurur, Zəngilan Rayon Polis Şöbəsinin bir qrup əməkdaşını, o cümlədən Zülfünü xilas etsə də, özü yaralanır.

Zülfü Həsənəliyev müəlliminin köməyini, ona qayğısını unutmur. Qazançı və Seyidlər kəndlərinin düşməndən alınmasında onun igidlik göstərdiyini yadından çıxarmır.

Hacı Zülfü Həsənəliyev 44 günlük Vətən müharibəsində də Zəngilan rayonunun mənfur düşmənlərdən azad olunmasında iştirak edib, həmçinin Sərhəd Qoşunları Xidmətində bələdçi kimi sərhədçilərimizə dağlarda bələdçilik edib.

Hacı Zülfü Həsənəliyev bu günlərdə doğma Zəngilanını ziyarət edənlərdən biri olub. O, məşhur və müqəddəs məkan sayılan Xanazir pirində olub, orada azan çəkərək, əhd elədiyi qurbanı kəsib.

***M.NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 5 sentyabr.- S.4.